# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci Gənc Alim və Mütəxəssislərin müsabiqəsinin (EİF/GAM-2013-2(8)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərə təsirinin Coğrafi İnformasiya Sistemləri texnologiyası ilə tədqiqi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Tahirova Hicran Mirəhməd qızı**
Qrantın məbləği: **11 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-2-2013-2(8)-25/11/2-M-20**
Müqavilənin imzalanma tarixi: **08 aprel 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il – 01 may 2015-ci il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | Layihənin mövzusu ilə əlaqədar ədəbiyyat və konfrans materialları araşdırılıb və təhlil olunmuşdur. ARDSK-nin Naxçıvan Muxtar Respublikasının demoqrafik göstəricilərinə dair çoxillik statistik məlumatlar təhlil olunmuşdur. Həmçinin bu regionun miqrasiya proseslərinə dair statistik məlumatlar məhdut olduğu üçün tərəfimizdən aparılan sorğu materialları və tədqiqat zamanı NMR-in aidiyyatı orqanlarından əldə olunan məlumatlar toplanmışdır. Bütün bu məlumatlar əsasında 40- a yaxın cədvəl və GİS proqramı vasitəsilə 5 xəritə tərtib edilmişdir. Tərtib olunmuş xəritələr həm məqalələrdə həm də monoqrafiyada öz əksini tapmışdır.<br>Layihənin yerinə yetirilməsi zamanı xəritələşdirmə, sorğu, müqaisə, statistik, tarixilik və riyazi üsullardan istifadə edilmişdir. |

| | |
|---|---|
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | Layihənin tamamlanması nəzərdə tutulan mərhələlər üzrə tamamilə yerinə yetirilmişdir. Mövzuyla əlaqədar mümkün olan bütün materiallar toplanmış və təhlil olunmuşdur. Bu materiallara əsasən NMR əhalisinin xarici miqrasiya proseslərində iştirak dərəcəsi, ölkələr üzrə istiqamətləri və səbəbləri (sosial-iqtisadi), həmçinin daxili miqrasiyanın istiqamətləri (həm daxili inzibati rayonlar üzrə, həm də Muxtar Respublika ilə Azərbaycan Respublikasının digər regionları arasında) və səbəbləri müəyyənləşdirilmişdir.Sonuncu mərhələdə layihənin mövzusu ilə əlaqədar rəqəmsal geoinformatika xəritələr hazırlanmışdır. NMR-də miqrasiya proseslərinin mənfi nəticələrini yaradan amillərin aradan qaldırılması və gələcək inkişaf perspektivləri müəyyənləşdirilmiş və tövsiyyələr verilmişdir.<br>Layihə 100 % yerinə yetirilmişdir. |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | **Elmi yeniliklər**: Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra ilk dəfə Naxçıvan Muxtar Respublikasının timsalında əhalinin miqrasiyası və onun demoqrafik proseslərə təsirinin iqtisadi-coğrafi problemləri GİS texnalogiyası vasitəsilə tədqiqat obyekti kimi öyrənilmişdir. İlk dəfə olaraq NMR-də "kəfkirvarı miqrasiya" tərəfimizdən kompleks şəkildə tədqiq olunmuşdur.<br>Həmçinin Muxtar respublikanın miqrasiya və demoqrafik göstəricilərini əks etdirən xəritələr GİS texnologiyası vasitəsilə ilk dəfə olaraq hazırlanmışdır.<br>Bununla yanaşı layihə əsasında aparılmış tədqiqatın yeniliklərinə aşağıdakılar da daxildir:<br>1.Naxçıvan Muxtar Respublikası əhalisinin xarici miqrasiya proseslərində iştirakı və onun səbəbləri müəyyənləşdirilmişdir;<br>2.Naxçıvan Muxtar Respublikasında demoqrafik proseslərin inkişaf xüsusiyyətləri və bu prosesə təsir edən miqrasiya iqtisadi-coğrafi aspektdə öyrənilmişdir;<br>3.Naxçıvan Muxtar Respublikasında daxili miqrasiyanın istiqamətləri və səbəbləri tədqiq edilmişdir;<br>4.Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərə təsirinin mənfi nəticələrinin aradan qaldırılması və tənzimlənməsi yolları müəyyənləşdirilmişdir.<br>**Elmi nəticələr:** Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərin formalaşmasına təsirinin Coğrafiya İnformasiya Sistemləri texnologiyası ilə tədqiq edərkən aşağıdakı nəticələr əldə olunmuşdur<br>Miqrasiya idarə edilməsi, tənzimlənməsi zəruri olan ictimai-siyasi və demoqrafik prosesdir. XXI əsrdə miqrasiya fenomeninin ən mühüm, yeni və prioritet istiqamətlərindən biri "miqrasiya-inteqrasiya və adaptasiya" problemidir. Miqrantların yaşayış üçün seçdikləri ölkənin cəmiyyətinə, iqtisadi, sosial-mədəni həyatına inteqrasiyası bu gün dünyanın əksər ölkələrində, o cümlədən də Azərbaycan respublikasında və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında həlli vacib sayılan problemlərdən biridir.<br>Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının iqtisadi-coğrafi və geosiyasi mövqeyi, strateji əhəmiyyəti, siyasi, iqtisadi, mədəni və s. əlaqələr üçün optimal tranzit məkan olması burada özünəməxsus miqrasiya proseslərini formalaşdırır.<br>Sovetlər dönəmində respublikaların miqrasiya spesifikası nəzərə alınmırdı. Ümumi SSRİ-də aparılan qapalı miqrasiya siyasəti bütün ittifaq respublikaları kimi Azərbaycana, o cümlədən də Naxçıvan Muxtar Respublikasına şamil olunurdu.<br>Müstəqillik qazandıqdan sonra əldə etdiyimiz nailiyyətlərdən biri də miqrasiya sahəsindəki dəyişiklik və sərbəstlik oldu. NMR-in İİR və Türkiyə ilə sərhədlərinin açılması, bu ölkələrə bilavasitə çıxışının olması burada yeni miqrasiya istiqamətlərinin formalaşmasına və bununla əlaqədar olaraq demoqrafik vəziyyətin dəyişməsinə şərait yaratdı. Bu proseslərin tənzimlənməsi |

sahəsində yeni miqrasiya siyasətinin həyata keçirilməsi və demoqrafik proseslərin nizamlanması zərurətini yaratdı.

1. Azərbaycanda, o cümlədən də NMR-də əhalinin miqrasiya siyasəti SSRİ dövründə MDB ölkələri ilə eynilik təşkil etmişdir. Müasir qloballaşma dövründə AR-da miqrasiya siyasəti dünya ölkələrində olduğu kimi aparılmalıdır. Buna görə də respublikada, o cümlədən də NMR-də miqrasiya proseslərinin təkmilləşdirilməsi prosesində dünya ölkələrinin təcrübəsini öyrənərək dövlət strategiyasını müəyyən etmək zəruridir.

2. 1990-cı illərdə MR-də sosial-iqtisadi vəziyyətin çətinliyi, həyat səviyyəsinin aşağı və işsizliyin yüksək olması ilə əlaqədar əhalinin xarici ölkələrə miqrasiyasının sürətlənməsi demoqrafik proseslərin, o cümlədən cins-yaş strukturunun pozulmasına, nikahların azalmasına, bu da öz növbəsində doğum və təbii artım proseslərinə öz mənfi təsirini göstərmişdir.

3. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, NMR-də əhalinin xaricə miqrasiyası əsasən 1992-ci ildən intensiv xarakter almışdır. Miqrasiyanın əsas istiqamətləri Türkiyə Respublikasına, MDB ölkələrinə (əsasən Rusiyaya), İran İslam Respublikasına və digər ölkələrə olmuşdur. Son bir neçə ildə əhalinin xarici ölkələrə (xüsusilə də Türkiyə Respublikasına) miqrasiyası azalmışdır, əvvəlki illərdən fərqli olaraq xarici ölkələrdən də buraya miqrantlar gəlir. Son 15 il (1999-2013-cü illər) ərzində NMR-ə gəlmiş 3,5 min nəfərdən 2,3 min nəfəri (64,0%) MDB ölkələrinin (xüsusilə də RF-in) payına düşür.

4. Tədqiq edilən dövrdə (1999-2013-cü illər) NMR-dən MDB və xarici ölkələrə 104,7 min nəfər əhali miqrasiya (əmək miqrasiyası) etmişdir ki, bunun da 95,1 min nəfəri (98,6%) Türkiyənin, 8,2 min nəfəri (8,1%) MDB ölkələrinin, qalan 1,0 min nəfəri (0,2%) digər ölkələrin payına düşür. NMR-dən xarici ölkələrə miqrasiya edənlərin əksəriyyəti müvəqqəti olaraq işləmək məqsədilə gedən əmək qabiliyyətli kişilərdir (65%).

Miqrasiya saldosunun 1999-cu ilə (-9,5 min nəfər) nisbətən 2013-cü ildə (-3,1 min nəfər) təqribən 2 dəfə azalmasına səbəb sosial-iqtisadi vəziyyətin yaxşılaşması, yeni iş yerlərinin açılması, regionun istilik və enerji ilə tam təmin olunması, xüsusilə kənd yerlərində sosial infrastrukturun bərpa edilməsi olmuşdur.

5. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, NMR-də əhalinin daimi miqrasiyası əsasən inzibati rayonlar ilə Naxçıvan şəhəri və MR ilə Bakı şəhəri arasındadır. 1999-2013-cü illərdə Bakı şəhərindən MR-ə gələnlərin sayı 1,9 min nəfər, gedənlərin sayı isə 9,9 min nəfər olmuşdur. Bu isə gedənlərin sayından 5,2 dəfə azdır. Regionun sərhədyanı ərazilərinin potensialından və xarici-iqtisadi əlaqələrin imkanlarından istifadə etməklə kənd təsərrüfatı sahələrinin inkişafı, təbii sərvətlərdən səmərəli istifadə və əmək ehtiyatlarının maksimal istifadəsini təşkil etmək olar.

6. Tədqiqat prosesində 4 min nəfər arasında aparılmış sorğunun nəticələrinə əsasən müəyyən olunmuşdur ki, MR üzrə ümumi respondentlərin 1482 nəfəri "kəfkirvarı miqrasiya" prosesində iştirak edirlər. NMR-də təsərrüfat sahələrinin qeyri-bərabər yerləşməsi, xüsusilə də Naxçıvan şəhərində cəmlənməsi bu prosesin bir tərəfli olması ilə nəticələnir. "Kəfkirvarı miqrasiya"nın əsas istiqamətləri inzibati rayonlardan Naxçıvan şəhərinə doğrudur. Bu proses Babək-Naxçıvan və Şahbuz-Naxçıvan şəhəri arasında daha intensiv müşahidə olunur. Səbəb isə bu inzibati rayonların yaxın məsafədə yerləşməsi və rayon mərkəzlərində sosial-iqtisadi bazanın zəif olmasıdır.

7. Son illərdə bütün regionlarda olduğu kimi NMR-də də daxili miqrasiyanın, o cümlədən də rayon və kəndlərdən əhalinin şəhərlərə axınının tənzimlənməsində, inzibatı rayonların iqtisadi inkişafının sürətləndirilməsində "Azərbaycan Respublikası regionlarının sosial–iqtisadi inkişafı (2004–2008, 2009-2013 və 2014-2018-ci illər) Dövlət Proqramlar"ı önəmli rol oynamaqdadır.

8. NMR-də əmək miqrasiyasının tənzimlənməsi, regiondan "beyin axını"nın və qeyri-leqal miqrasiyanın qarşısının alınması, ixtisaslı kadr potensialının regiona cəlb olunması və s. tədbirlərin həyata keçirilməsi xarici miqrasiya proseslərinin nizamlanması mühüm rol oynamaqla yanaşı, regionun davamlı sosial-iqtisadi və demoqrafik inkişafının təmin edilməsinə də öz müsbət

təsirini göstərə bilər.

**Təkliflər:**

1. NMR-də miqrasiya proseslərinin tənzimlənməsində sosial-iqtisadi vəziyyət, regionun geosiyasi mövqeyi, blokada şəraitində olması, nəqliyyat və xarici ticarət əlaqələri, yeni iş yerlərinin açılması, təbii sərvətlərdən səmərəli istifadə, kənd təsərrüfatının, turizm sahələrinin inkişafının və s. nəzərə alınması zəruridir.

2. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı potensialının istifadəsində dövlət himayəçilik siyasətinin və beynəlxalq iqtisadi qrupların imkanlarından istifadə etməklə kənd yerlərində işsizlik probleminin aradan qaldırılmasına şərait yaradılması məqsədəuyğun hesab edirik.

**Elmi təcrübi əhəmiyyəti**. Layihə əsasında əldə olunmuş elmi nəticə və xəritələr Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinin tənzimlənməsində, bununla əlaqədar demoqrafik problemlərin həll edilməsində və məskunlaşmanın nizamlanmasında əhəmiyyətli rol oynaya bilər.

Həmçinin tədqiqat zamanı alınan nəticə və tövsiyələr Naxçıvan Muxtar Respublikası ilə yanaşı, digər oxşar problemləri olan regionlar üçün də təcrübi əhəmiyyətə malikdir.

Bundan başqa alınan nəticələrdən gələcəkdə bu sahədə elmi tədqiqat işlərinin aparılmasında da istifadə oluna bilər.

4 Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*

**Çap olunmuş məqalələr:**

**1.**"Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinin dinamikasının iqtisadi coğrafi təhlili" AMEA-nın Xəbərləri, Yer elmləri, 2014, № 3-4, səh.66-73.

**2.** "Естественное движение населения Нахичеванской Автономной Республики и его влияние на демографические процессы" Вестник Евразийской Академии административных наук, 2014, səh.107-111.

**3.** Роль миграции в изменениях демографического положения Нахичеванской Автономной Республики Наука и мир международный научный журнал, № 2 (18), 2015, том 1.с. 117-121.

**Çapa təqdim olunmuş məqalə:**

**1.** Müasir qlobal dəyişmələrə GEO və təbii təsərrüfat sistemlərinin adaptasiyası problemləri elmi konfransın materialları / "Qloballaşma dövründə Naxçıvan Muxtar Respublikasının xarici miqrasiya proseslərində yeri" Ü.N. İsgəndərova ilə birlikdə.

**Monoqrafiya:** Miqrasiyanın demoqrafik proseslərə təsirinin iqtisadi - coğrafi problemləri (Naxçıvan Muxtar respublikasının timsalında) çapa hazırlanır həcmi təqribən 215 səhfədən ibarətdir.

Xaricdə çap olunmaq üçün İngilis dilində məqalə hazırlayıram.

5 İxtira və patentlər, səmərələşdirici təkliflər
*(burada doldurmalı)*

6 Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir)

"Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərə təsirinin Coğrafi İnformasiya Sistemləri texnologiyası ilə tədqiqi" layihəsi üzrə 2014 - cü il avqust ayının 6-dan 30-a qədər Naxçıvan Muxtar Respublikasında 25 günlük ezamiyyətdə olmuşam.

Ezamiyyət müddətində əsasən layihənin mövzusu ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyində və Miqrasiya Xidməti Şöbəsində tədqiqat aparmışam. Tədqiqat zamanı DİN- nin qeydiyyat şöbəsində Muxtar Respublika əhalisinin daimi miqrasiyası (həm, Naxçıvan Muxtar Respublikası üzrə, həm də inzibati rayonlar üzrə daimi qeydiyyatdan çıxan və qeydiyyata alınan əhali) haqqında son 15 ilə (1999 - 2013-cü illər) dair statistik materiallar toplamışam. Daimi miqrasiya region əhalisinin demoqrafik vəziyyətinin, xüsusilə də əhalinin say dinamikasının dəyişməsində əsaslı rol oynayır. Həmçinin xarici miqrasiya proseslərinin (immiqrantlar və emiqrantlar) istiqamətləri, səbəbləri və miqrasiya edən əhalinin sayı haqqında məlumat NMR Miqrasiya Xidməti Şöbəsinin illik qeydiyyat məlumatları əsasında əldə olunmuşdur. 2014-cü il 8 avqust tarixində NMR DİN-ə layihə ilə bağlı məlumatlarin əldə olunmasında mənə köməklik etmələri üçün müraciət etmişəm. Müraciətimi qəbul ediblər və 2014-cü il avqustun 28-ə qədər Daxili İşlər Nazirliyinin aidiyyatı şöbələrində tədqiqatda olmuşam və məlumat toplamışam.

7 Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa)

*(burada doldurmalı)*

8 Layihə üzrə digər tədbirlərdə iştirak

*(burada doldurmalı)*

9 Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq)

**Məruzə:** AMEA-nın Coğrafiya İnstitutunun 70 illik yubileyi ilə əlaqədar 2015-ci il 22 may tarixində NMR-də ölkədaxili elmi seminarda layihənin mövzusuna dair "Naxçıvan Muxtar Respublikasında məskunlaşma və miqrasiya problemləri" adlı mövzu ilə məruzə nəzərdə tutulmuşdur.

Həmçinin 2015-ci ilin sentyabr ayında keçiriləcək "Müasir qlobal dəyişmələrə GEO və təbii təsərrüfat sistemlərinin adaptasiyası problemləri" plenar elmi konfransında "Qloballaşma dövründə Naxçıvan Muxtar Respublikasının xarici miqrasiya proseslərində yeri" adlı məruzə nəzərdə tutulmuşdur.

10 Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları

Noutbuk, Çoxfunksiyalı rəngli printer, Skaner, Fotoaparat, Lisenziyalı proqram təminatı-MS Office 2013 std, 1 illik lisenziyalı proqram təminatı- Kaspersky Antivirus 2014,

11 Yerli həmkarlarla əlaqələr

*(burada doldurmalı)*

12 Xarici həmkarlarla əlaqələr

*(burada doldurmalı)*

| | |
|---|---|
| **13** | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa)<br>*(burada doldurmalı)* |
| **14** | Sərgilərdə iştirak (əgər baş tutubsa)<br>*(burada doldurmalı)* |
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa)<br>*(burada doldurmalı)* |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir)<br>*(burada doldurmalı)* |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

______________
*(imza)*
"8" may 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

______________
*(imza)*
"8" may 2015-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Tahirova Hicran Mirəhməd qızı

______________
*(imza)*
"8" may 2015-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci Gənc Alim və Mütəxəssislərin müsabiqəsinin (EİF/GAM-2013-2(8)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

Layihənin adı: **Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərə təsirinin Coğrafi İnformasiya Sistemləri texnologiyası ilə tədqiqi**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Tahirova Hicran Mirəhməd qızı**

Qrantın məbləği: **11 000 manat**

Layihənin nömrəsi: **EİF/GAM-2-2013-2(8)-25/11/2-M-20**

Müqavilənin imzalanma tarixi: **08 aprel 2014-cü il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il – 01 may 2015-ci il**

### 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | Layihə əsasında Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərin formalaşmasına təsirinin iqtisadi-coğrafi və sosial problemlərinin GİS texnologiyası ilə tədqiq edərkən aşağıdakı nəticələr əldə olunmuşdur.<br>Onu da qeyd etmək lazımdır ki, layihənin mövzusu ilk dəfə olaraq elmi tədqiqat işi kimi işlənmişdir. Yəni bu mövzuda başqa tədqiqat işi aparılmamışdır. Ona görə də müqaisəli xarakteristika verilməmişdir.<br>İlk öncə onu qeyd etmək istəyirəm ki, Miqrasiya idarə edilməsi, tənzimlənməsi zəruri olan ictimai-siyasi və demoqrafik prosesdir. XXI əsrdə miqrasiya fenomeninin ən mühüm, yeni və prioritet istiqamətlərindən biri "miqrasiya-inteqrasiya və adaptasiya" problemidir. Miqrantların yaşayış üçün seçdikləri ölkənin cəmiyyətinə, iqtisadi, sosial-mədəni həyatına inteqrasiyası bu |

gün dünyanın əksər ölkələrində, o cümlədən də Azərbaycan respublikasında həlli vacib sayılan problemlərdən biridir.

Azərbaycanda, o cümlədən də NMR-də əhalinin miqrasiya siyasəti SSRİ dövründə MDB ölkələri ilə eynilik təşkil etmişdir. Müasir qloballaşma dövründə AR-da miqrasiya siyasəti dünya ölkələrində olduğu kimi aparılmalıdır. Buna görə də respublikada, o cümlədən də NMR-də miqrasiya proseslərinin təkmilləşdirilməsi prosesində dünya ölkələrinin təcrübəsini öyrənərək dövlət strategiyasını müəyyən etmək zəruridir.

Tədqiqat zamanı məlum olmuşdur ki, 1990 -cı illərdə MR-də sosial-iqtisadi vəziyyətin çətinliyi, həyat səviyyəsinin aşağı və işsizliyin yüksək olması ilə əlaqədar əhalinin xarici ölkələrə miqrasiyasının sürətlənməsi demoqrafik proseslərin, o cümlədən cins-yaş strukturunun pozulmasına, nikahların azalmasına, bu da öz növbəsində doğum və təbii artım proseslərinə öz mənfi təsirini göstərmişdir.

NMR-də əhalinin xaricə miqrasiyası əsasən 1992-ci ildən intensiv xarakter almışdır. Miqrasiyanın əsas istiqamətləri Türkiyə Respublikasına, MDB ölkələrinə (əsasən Rusiyaya), İran İslam Respublikasına və digər ölkələrə olmuşdur. Son bir neçə ildə əhalinin xarici ölkələrə (xüsusilə də Türkiyə Respublikasına) miqrasiyası azalmışdır, əvvəlki illərdən fərqli olaraq xarici ölkələrdən də buraya miqrantlar gəlir. Son 15 il ərzində NMR-ə gəlmiş 2,4 min nəfərdən 1,6 min nəfəri (65,1%) MDB ölkələrinin (xüsusilə də RF-in) payına düşür.

Tədqiq edilən dövrdə (1999-2012-ci illər) NMR-dən MDB və xarici ölkələrə 93,3 min nəfər əhali miqrasiya (əmək miqrasiyası) etmişdir ki, bunun da 84,6 min nəfəri (90,7%) Türkiyənin, 7,6 min nəfəri (8,1%) MDB ölkələrinin, qalan 1,1 min nəfəri (1,2%) digər ölkələrin payına düşür. NMR-dən xarici ölkələrə miqrasiya edənlərin əksəriyyəti müvəqqəti olaraq işləmək məqsədilə gedən əmək qabiliyyətli kişilərdir (65%).

Miqrasiya saldosunun 1999-cu ilə (-9,5 min nəfər) nisbətən 2013-cü ildə (-3,1 min nəfər) təqribən 2 dəfə azalmasına səbəb sosial-iqtisadi vəziyyətin yaxşılaşması, yeni iş yerlərinin açılması, regionun istilik və enerji ilə tam təmin olunması, xüsusilə kənd yerlərində sosial infrastrukturun bərpa edilməsi olmuşdur.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı potensialının istifadəsində dövlət himayəçilik siyasətinin və beynəlxalq iqtisadi qrupların imkanlarından istifadə etməklə kənd yerlərində işsizlik probleminin aradan qaldırılmasına şərait yaradılması məqsədəuyğundur.

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, NMR-də əhalinin daimi miqrasiyası əsasən inzibati rayonlar ilə Naxçıvan şəhəri və MR ilə Bakı şəhəri arasındadır. 1999-2013-cü illərdə Bakı şəhərindən MR-ə gələnlərin sayı 1,9 min nəfər, gedənlərin sayı isə 9,9 min nəfər olmuşdur. Bu isə gedənlərin sayından 5,2 dəfə azdır. Regionun sərhədyanı ərazilərinin potensialından və xarici-iqtisadi əlaqələrin imkanlarından istifadə etməklə kənd təsərrüfatı sahələrinin inkişafı, təbii sərvətlərdən səmərəli istifadə və əmək ehtiyatlarının maksimal istifadəsini təşkil etmək olar.

Tədqiqat prosesində 4 min nəfər arasında aparılmış sorğunun nəticələrinə əsasən müəyyən olunmuşdur ki, MR üzrə ümumi respondentlərin 1482 nəfəri "kəfkirvarı miqrasiya" prosesində iştirak edirlər. NMR-də təsərrüfat sahələrinin qeyri-bərabər yerləşməsi, xüsusilə də Naxçıvan şəhərində cəmlənməsi bu prosesin bir tərəfli olması ilə nəticələnir. "Kəfkirvarı miqrasiya"nın əsas istiqamətləri inzibati rayonlardan Naxçıvan şəhərinə doğrudur. Bu proses Babək-Naxçıvan və Şahbuz-Naxçıvan şəhəri arasında daha intensiv müşahidə olunur. Səbəb isə bu inzibati rayonların yaxın məsafədə yerləşməsi və rayon mərkəzlərində sosial-iqtisadi bazanın zəif olmasıdır.

Son illərdə bütün regionlarda olduğu kimi NMR-də də daxili miqrasiyanın, o cümlədən də rayon və kəndlərdən əhalinin şəhərlərə axınının tənzimlənməsində, inzibatı rayonların iqtisadi inkişafının sürətləndirilməsində "Azərbaycan Respublikası regionlarının sosial–iqtisadi inkişafı (2004–2008, 2009-2013–cü illər) Dövlət Proqramlar"ı önəmli rol oynamaqdadır. NMR-də miqrasiya proseslərinin tənzimlənməsində sosial-iqtisadi vəziyyət, regionun geosiyasi mövqeyi, blokada şəraitində olması, nəqliyyat və xarici ticarət əlaqələri, yeni iş yerlərinin açılması, təbii sərvətlərdən səmərəli istifadə, kənd təsərrüfatının, turizm sahələrinin inkişafının və s. nəzərə alınması zəruridir.

NMR-də əmək miqrasiyasının tənzimlənməsi, regiondan "beyin axını"nın və qeyri-leqal miqrasiyanın qarşısının alınması, ixtisaslı kadr potensialının regiona cəlb olunması və s.

| | |
|---|---|
| | tədbirlərin həyata keçirilməsi xarici miqrasiya proseslərinin nizamlanması mühüm rol oynamaqla yanaşı, regionun davamlı sosial-iqtisadi və demoqrafik inkişafının təmin edilməsinə də öz müsbət təsirini göstərə bilər. |
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)* |

## 2. Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri

| | |
|---|---|
| 1 | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | Tədqiqat işində miqrasiyanın demoqrafik proseslərə təsirinin iqtisadi-coğrafi problemləri ətraflı araşdırılaraq konkret elmi nəticələr alınmış və həmin problemlərin aradan qaldırılması üçün elmi əsası olan tövsiyələr verilmişdir. Əldə olunan nəticələr Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinin tənzimlənməsində, bununla əlaqədar demoqrafik problemlərin həll edilməsində və məskunlaşmanın nizamlanmasında əhəmiyyətli rol oynaya bilər.<br>Tədqiqat işində alınan nəticələr və tövsiyələr Naxçıvan Muxtar Respublikası ilə yanaşı, digər oxşar problemləri olan regionlar üçün də təcrübi əhəmiyyətə malik ola bilər.<br>Həmçinin tədqiqat zamanı əldə edilmiş məlumatlar əsasında yazılmış monoqrafiyadan bu sahədə tədqiqat işləri aparan elmi işçilər, bakalavr və magistr pilləsində təhsil alanlar və geniş oxucu kütləsi istifadə edə bilər. Bundan basqa tədqiqat zamanı əldə olunan məlumatlar əsasında Muxtar Respublikanın miqrasiya proseslərini və demoqrafik göstəricilərini əks etdirən 40 -a yaxın cədvəl və GİS texnologiyası vasitəsilə 5 xəritə hazırlanmışdır ki, bu da tədqiqatın əyaniliyini artirmaqla yanaşı, gələcəkdə bu istiqamətdə aparılan elmi tədqiqat işlərində əsaslı vəsait kimi istifadə oluna bilər. |
| | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

**İCRAÇI:**

**Layihə rəhbəri**
Tahirova Hicran Mirəhməd qızı

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci Gənc Alim və Mütəxəssislərin müsabiqəsinin (EİF/GAM-2013-2(8)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

### ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərə təsirinin Coğrafi İnformasiya Sistemləri texnologiyası ilə tədqiqi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Tahirova Hicran Mirəhməd qızı**
Qrantın məbləği: **11 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-2-2013-2(8)-25/11/2-M-20**
Müqavilənin imzalanma tarixi: **08 aprel 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il – 01 may 2015-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

1. **Elmi əsərlər (sayı)**

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | | 1 | |
| | həmçinin, xaricdə çap olunmuş | | | |
| 2. | Məqalələr | 1 | | |
| | həmçinin xarici nəşrlərdə | 2 | | |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Konfrans materiallarında məqalələr | | 1 | |
| | O cümlədən, beynəlxalq konfras materiallarında | | | |
| 4. | Məruzələrin tezisləri | | 1 | |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | Seminar | Ölkədaxili | plenar | 1 |
| 2. | | | | |
| 3. | | | | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

______________
*(imza)*
“8” may 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

______________
*(imza)*
“8” may 2015-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Tahirova Hicran Mirəhməd qızı

______________
*(imza)*
“8” may 2015-ci il